# Nəsimi rayonunda bayram tədbiri





Paytaxtın Nəsimi rayonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi və Yeni il münasibəti ilə geniş və musiqili tədbir keçirildi.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Nəsib Məhəməliyev ilk öncə bayram iştirakçılarını təbrik etdi və ürək sözlərini onlarla bölərək dedi:

—31 dekabr Azərbaycanın tarixinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi daxil olmuşdur. Bu istiqamətdə ilk addım ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında atıldı. Qərara görə 31 dekabr Milli Həmrəylik Günü kimi hər il bayram edilməsini nəzərdə tutan müddəa ilə yanaşı bu günün bütün Azərbaycan ərazisində qeyd edilməsi barədə Respublika Ali Sovetinə təklif verilməsinin zəruriliyini bildirən bənd də salındı.

2001-ci ilin noyabrında Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilmişdir. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Belə bir təntənəli mərasimdə ulu öndərimiz Heydər Əliyevin belə bir fikrini xatırlatmaq yerinə düşərdi: **"Azərbaycanlı hər yerdə yaşaya bilər ancaq azərbaycançılığını, öz dilini, milli ənənələrini unutmamalıdırlar. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".**

Dünya Azərbaycanlılarının III Qurultayından sonra xaricdə yaşayan soydaşlarımızla əlaqələrin güclənməsi, tarixi Vətənə bağlılığın möhkəmlənməsi dövlət quruculuğunun mühüm amilinə çevrilmişdir. Həqiqətən də dünya azərbaycanlıları harada yaşamasından asılı olmayaraq Vətənini, xalqını sevir, Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılmasına maksimum səy göstərirlər.

Bu gün xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsində, soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmləndirilməsində yeni mərhələnin yaşandığını deyə bilərik. Bu bir tərəfdən Azərbaycanın iqtisadi və siyasi cəhətdən güclənməsi, onun regionda lider dövlətə çevrilməsi, beynəlxalq nüfuzunun artması ilə, digər tərəfdən isə xaricdə yaşayan azərbaycanlılarla işin keyfiyyətcə yeni məzmun kəsb etməsi, qarşıya yeni vəzifələr qoyulması ilə əlaqədardır.

Nəsib Məhəməliyev sözünə davam edərək vurğuladı ki, indiki günlərdə dünyada yaşayan həmvətənlərimiz sonsuz fərəh içərisindədirlər. Hər yerdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təntənə ilə qeyd olunur. Bir sözlə dünya azərbaycanlıları vahid bir ideya ətrafında birləşərək monolit qüvvəyə çevrilmişlər. Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu davam etdirərək soydaşlarımızın tarixi Vətənin ümumi mənafeləri çərçivəsində həmrəyliyinin təmin olunmasına, milli maraqlarımızın qorunmasında diasporun imkanlarından daha səmərəli istifadə edilməsinə istiqamətlənmiş siyasət



yeritməkdədir.

Bayram tədbirində incəsənət ustaları maraqlı proqramla çıxış etdilər. Tədbirin sonunda rayonun ictimai həyatında fərqlənən bir qrup fəala rayon icra hakimiyyətinin fəxri fərmanı təqdim olundu.

**Qədir ASLAN,**
**"Respublika".**